**“Təsdiq edilmişdir”**

**Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi əmr № 049 “04” iyun 2001-ci il**

**Sədr**
**__________ __ H. Babayev**

**“Razılaşdırılıb”**

**Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin 2001-ci il “01” may tarixli qərarı ilə protokol № 15**

**İdarə Heyətinin Sədri**
**____________E. Rüstəmov**

(2 sentyabr 2004-cü il tarixli 151 №-li, 29 sentyabr 2006-cı il tarixli 0182 №-li və 02 aprel 2008-ci il tarixli 034 №-li Əmrlərin redaksiyasında)

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ BANKININ QISAMÜDDƏTLİ NOTLARININ BURAXILIŞI, YERLƏŞDIRİLMƏSİ VƏ TƏDAVÜLÜ HAQQINDA QAYDALAR

## I. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, “Azərbaycan Respublikasının Milli Bankı haqqında” Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 saylı Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında” Əsasnaməyə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikası Milli Bankının (irəlidə “Milli Bank”) qısamüddətli notlarının (irəlidə “qısamüddətli notlar”) buraxılışı, yerləşdirilməsi və tədavülü qaydalarını tənzimləyir.

## II. İstifadə olunan anlayışlar

2.1. <u>*Milli Bankın qısamüddətli notları*</u> - Milli Bank tərəfindən bir ilədək müddətinə buraxılan adlı sənədsiz dövlət güzəştli qiymətli kağızlarıdır. Qısamüddətli notlar dövriyyədə olan pul kütləsinin tənzimlənməsi üçün nəzərdə tutulmuş pul-kredit siyasəti vasitəsidir. Qısamüddətli notların sahibləri yalnız Miili Bankın lisenziyası əsasında fəaliyyət göstərən banklar ola bilər.

2.2. ***Çıxarılıb***

2.3. ***“İnvestor”*** – qısamüddətli notları əldə edən bankdır.

2.4. ***“Fond birjası”*** – öz üzvləri arasında qiymətli kağızlarla ticarəti təşkil edən və bağlanmış əqdlərin icrasını təmin edən ticarət təşkilatçısıdır. Fond birjası Milli Bankla müqavilə əsasında qısamüddətli notlarla əqdlərin bağlanması prosedurasını təmin edir.

2.5. “***Depozitar”*** – Milli Bankın qısamüddətli notlarının saxlanması və onlara hüquqların, habelə öhdəliklərlə yüklənməsi faktlarının uçotu və təsdiq edilməsi üzrə xidmətlər göstərən təşkilatdır.

2.6. *Qısamüddətli notların ilkin yerləşdirilməsi (irəlidə – “ilkin yerləşdirmə”)* - Emitent tərəfindən qısamüddətli notların ilk sahiblərinə satış üsuludur.

2.7. *Rəqabətli sifariş* – sifarişdə göstərilən şərtlərlə (dəqiq qiymət və miqdar) qısamüddətli notların alqı-satqısı müqaviləsinin bağlanması barədə alıcının Milli Banka etdiyi təklif hesab olunur. Rəqabətli sifariş orada göstərilən qiymət kəsmə qiymətdən aşağı olmadıqda təmin edilir.

2.8. *Qeyri-rəqabətli sifariş* – ilkin yerləşdirmənin orta çəkili qiyməti ilə sifarişdə göstərilən pul vəsaiti məbləğində qısamüddətli notların alqı-satqısı müqaviləsinin bağlanması barədə alıcının Milli Banka etdiyi təklifdir.

2.9. *Qısamüddətli notların tədavülü* – qısamüddətli notlar üzrə mülkiyyət hüquqlarının keçməsinə səbəb olan mülki-hüquqi əqdlərin bağlanmasıdır.

2.10. *Qısamüddətli notların ödənilməsi* – Milli Bank tərəfindən qısamüddətli notların tədavüldən çıxarılması və sahiblərin hesablarına qısamüddətli notların nominal dəyəri miqdarında pul vəsaitinin köçürülməsidir.

2.11. ***Çıxarılıb***

2.12. *Birbaşa hərrac* – Milli Bank tərəfindən qısamüddətli notların qiymətinin elan olunması üsulu ilə həyata keçirilən hərracdır. Bu hərracda investorlar tərəfindən yalnız qeyri-rəqabətli sifariş verilir.

2.13. *Dolayı hərrac* – Milli Bank tərəfindən qısamüddətli notların həcminin elan olunması üsulu ilə həyata keçirilən hərracdır. Bu hərracda investorlar tərəfindən həm rəqabətli, həm də qeyri-rəqabətli sifarişlər verilir.

## III. Qısamüddətli notlar bazarında Milli Bankın hüquqları.

3.1. Milli Bank qısamüddətli notların Emitenti vəzifələrini yerinə yetirərkən aşağıdakı hüquqlara malikdir:

3.1.1. qiymətli kağızlar bazarının peşəkar iştirakçıları ilə qarşılıqlı münasibətləri müəyyənləşdirən müqavilələr bağlamaq;

3.1.2. qısamüddətli notların ilkin yerləşdirilməsi qaydalarını müəyyən etmək və onu keçirmək;
3.1.3. ilkin yerləşdirilmə zamanı satılmamış qısamüddətli notların əlavə satışını həyata keçirmək;
3.1.4. qısamüddətli notlarla təkrar bazarda əqdlər bağlamaq.

## IV. Qısamüddətli notların buraxılışı qaydası

4.1. Qısamüddətli notların ilkin yerləşdirilməsi Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (irəlidə - "QKDK") tərəfindən qısamüddətli notların buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra həyata keçirilir.

4.2. 1 (bir) təqvim ili ərzində buraxılacaq qısamüddətli notların emissiya prospektinin qeydiyyata alınması üçün Milli Bank QKDK-ya aşağıdakı sənədləri təqdim edir:
4.2.1. qısamüddətli notların emissiya prospektinin qeydiyyata alınması üçün vəsatəti;
4.2.2. qısamüddətli notların buraxılışı haqqında Milli Bankın qərarının surətini;
4.2.3 qısamüddətli notların emissiya prospektini;
4.2.4. ***Çıxarılıb***

4.3. Qısamüddətli notların emissiya prospektində həmin təqvim ili ərzində buraxılacaq qısamüddətli notlar barədə aşağıdakı məlumatlar əks olunur:
4.3.1 emitentin tam adı və hüquqi ünvanı;
4.3.2 qısamüddətli notların buraxılışı haqqında qərarın qəbul edildiyi tarix və onu qəbul etmiş orqanın adı;
4.3.3 qısamüddətli notların buraxılacağı təqvim ili;
4.3.4 qısamüddətli notların nominal dəyər üzrə ümumi məbləği;
4.3.5. hər bir qısamüddətli notun nominal dəyəri;
4.3.6 qısamüddətli notların sayı;
4.3.7. hər bir qısamüddətli notla təsbit edilən hüquqlar;
4.3.8. ***Çıxarılıb***
4.3.9 alıcıların qısamüddətli notları ala biləcəkləri yer;
4.3.10 qısamüddətli notların uçotu və onlara olan hüquqların keçməsi üzrə xidmətləri göstərən Depozitar haqqında məlumat.

4.4 Qısamüddətli notların emissiya prospekti qeydiyyata alındıqda Milli Banka bu barədə bildiriş verilir.

4.5 Qısamüddətli notların ilkin yerləşdirilməsinin başlanmasına ən azı 3 (üç) iş günü qalmış Milli Bank qısamüddətli notlar buraxılışının dövlət qeydiyyatına alınması üçün aşağıdakı məlumatları əks edən vəsatətlə QKDK-ya müraciət edir:
4.5.1 qısamüddətli notlar buraxılışının nominal dəyər üzrə ümumi məbləği;
4.5.2 buraxılışa daxil olan hər bir qısamüddətli notun nominal dəyəri;
4.5.3 buraxılışa daxil olan qısamüddətli notların sayı;
4.5.4. qısamüddətli notlar buraxılışının yerləşdirilməsinin başlanma tarixi;
4.5.5 . qısamüddətli notlar buraxılışının dövriyyə müddəti və ödənilməsi tarixi.
4.6. Vəsatət təqdim olunduqdan sonra növbəti iş günü QKDK tərəfindən Milli Banka qiymətli kağızlar buraxılışının dövlət qeydiyyatı haqqında Şəhadətnamə və ya buraxılışın qeydiyyata qeydiyyata alınmasından imtina edildiyi barədə yazılı şəkildə məlumat təqdim olunur.

## V. İlkin yerləşdirilmənin keçirilməsi qaydası

5.1. Qısamüddətli notların ilkin yerləşdirilməsi Milli Bank tərəfindən müəyyən edilmiş qaydada birbaşa və ya dolayı hərraclar vasitəsilə həyata keçirilir.

5.2. İlkin yerləşdirilmə Milli Bankda və ya Milli Bankla razılaşdırılmış reqlamentə uyğun Fond birjası vasitəsilə keçirilə bilər.

5.3. Qısamüddətli notların ilkin yerləşdirilməsinin aşağıdakı parametrləri Milli Bank tərəfindən ilkin yerləşdirmənin keçirilməsinə azı 1(bir) iş günü qalmış elan edilir:

*Birbaşa hərracda:* ilkin yerləşdirmənin tarixi, dövlət qeydiyyatından keçən qısamüddətli notların qeydiyyat nömrəsi, dövlət qeydiyyatından keçən qısamüddətli notların həcmi, qısamüddətli notların qiyməti, sifarişlərin qəbul edilmə vaxtı, təqdim olunmuş sifarişlər üzrə öhdəliklər yerinə yetirilmədikdə Milli Bank tərəfindən tətbiq ediləcək sanksiya və buraxılışın digər şərtləri;

*Dolayı hərracda:* ilkin yerləşdirmənin tarixi, dövlət qeydiyyatından keçən qısamüddətli notların qeydiyyat nömrəsi, dövlət qeydiyyatından keçən qısamüddətli notların həcmi, hərraca çıxarılacaq qısamüddətli notların həcmi, qeyri-rəqabətli sifarişlər üzrə limitin həcmi, sifarişlərin qəbul edilmə vaxtı, təqdim olunmuş sifarişlər üzrə öhdəliklər yerinə yetirilmədikdə Milli Bank tərəfindən tətbiq ediləcək sanksiya və buraxılışın digər şərtləri.

5.4. İlkin yerləşdirilmə günü sifarişlərin qəbulu üçün elan olunmuş müddət ərzində birja üzvləri qısamüddətli notların alınması üçün sifarişlər təqdim edə bilərlər.

5.5. İlkin yerləşdirilmə Milli Bankda keçirildikdə sifarişlər investorlar tərəfindən qısamüddətli notların yerləşdirilməsi üzrə ilkin yerləşdirilmənin təşkili və aparılmasına vəkil edilmiş Milli Bankın müvafiq departamentinə yazılı şəkildə təqdim edilir (Əlavə № 2).

5.6. İlkin yerləşdirilmə Fond birjası vasitəsilə keçirildikdə sifarişlər birja üzvləri tərəfindən Fond birjasına təqdim edilir.

5.7. Sifarişdə aşağıdakılar göstərilir:

5.7.1. birja üzvünün adı;
5.7.2. sifariş investorun adından və vəsaiti hesabına verildikdə – investorun tam adı;
5.7.3. qısamüddətli notların dövlət qeydiyyat nömrəsi;
5.7.4. rəqabətli sifarişlər üçün - əqdin faizlə ifadə olunmuş qiyməti (nominaldan yüzdə bir dəqiqliyi ilə);
5.7.5. rəqabətli sifarişlər üçün - hər qiymət üzrə alınan qısamüddətli notların miqdarı;
5.7.6. qeyri-rəqabətli sifarişlər üçün – əqd üzrə nəzərdə tutulmuş məbləğ.

5.8. Sifarişlərin qəbulu müddəti ərzində hər hansı bir sifariş Birja üzvü, ilkin yerləşdirmə Milli Bankda keçirildikdə isə investor tərəfindən geri götürülə bilər.

5.9. Fond birjasında birja üzvləri həm öz adı və vəsaiti hesabına, həm də xidmət göstərdikləri investorların adı və vəsaitləri hesabına sifariş vermək hüququna malikdirlər.

5.10. Sifarişlərin qəbulunun yekunları üzrə ilkin yerləşdirilməyə təqdim olunmuş sifarişlərin ümumi reyestri tərtib edilir (Əlavə № 3).

5.11. İlkin yerləşdirilmənin yekunlarının elan edilməsi üçün müəyyən olunmuş vaxtadək dolayı hərracda Milli Bank buraxılışın həcmi həddində qısamüddətli notların minimum satış (irəlidə – "kəsmə qiyməti") və orta çəkili qiymətlərini, habelə təmin edilmiş rəqabətli və qeyri-rəqabətli sifarişlərin həcmini müəyyənləşdirir. Orta çəkili qiymət bu Qaydalara 4 №-li Əlavəyə müvafiq surətdə hesablanır. Alınan qısamüddətli notların miqdarı – qeyri-rəqabətli sifariş üzrə pul vəsaiti məbləğinin ilkin yerləşdirilmənin orta çəkili qiymətinə bölünməsindən alınan tam rəqəmdir.

Birbaşa hərracda ilkin yerləşdirmənin yekunlarının elan edilməsi üçün müəyyən olunmuş vaxtadək Milli Bank hərracda təmin olunacaq qısamüddətli notların həcmini müəyyənləşdirir.

5.12. Bərabər qiymət şərtləri ilə verilmiş sifarişlərin həcmi bu qiymət üzrə Milli Bank tərəfindən təklif olunan qısamüddətli notların həcmindən çox olduqda sifarişlərin qismən ödənilməsinə yol verilir. Bu zaman sifarişlər mütənasib qaydada təmin edilir.

5.13. İlkin yerləşdirilmənin yekunları üzrə müvafiq hesablaşmalar aparıldıqdan sonra Birja üzvlərinə, ilkin yerləşdirmə Milli Bankda keçirildikdə isə investorlara əqdlər reyestrindən çıxarış təqdim edilir.

5.14. Əqdlər reyestrindən çıxarış ilkin yerləşdirmədə iştirak edən Birja üzvləri, ilkin yerləşdirmə Milli Bankda keçirildikdə isə investorlar ilə Milli Bank arasında qısamüddətli notların alqı-satqısı barədə müqavilə bağlandığını təsdiq edir.

5.15. Birja üzvü və onun xidmət göstərdiyi investorlar arasında qısamüddətli notlarla əqdlərin bağlanması ilə əlaqədar münasibətlər bu Qaydalara zidd olmayan müvafiq müqavilə ilə tənzimlənir.

5.16. Qısamüddətli notların ilkin yerləşdirilmə zamanı yerləşdirilməmiş həcmi Milli Bankın müəyyən etdiyi qaydada əlavə yerləşdirilə bilər.

## VI. Qısamüddətli notlarının tədavülü və ödənilməsi

6.1. Təkrar bazarda qısamüddətli notlarla alqı-satqı, girov, REPO və digər əqdlərin bağlanmasına yol verilir.

6.2. Qısamüddətli notlarla REPO əməliyyatları Dövlət qiymətli kağızlarla REPO əməliyyatlarının Milli Bank və QKDK tərəfindən müəyyənləşdirilmiş qaydada (bu Qaydaların müddəaları nəzərə alınmaqla) aparılır.

6.3. Qısamüddətli notlar üzərində mülkiyyət hüququ bir sahibdən digərinə Depozitarda alıcının hesabı üzrə mədaxil yazılışının aparıldığı andan keçir.

6.4. Qısamüddətli notlarla girov əməliyyatları qüvvədə olan qanunvericiliyə, bu Qaydalara və digər normativ aktlara müvafiq surətdə aparılır.

6.5. Qısamüddətli notların təkrar bazarda tədavülü Fond birjası vasitəsilə və ya bilavasitə banklar arasında bağlanılmış əqdlər əsasında həyata keçirilir.

6.6. Qısamüddətli notların ödənişi ödəniş günü təkrar bazarda növbəti hərraclar və ya yeni ilkin yerləşdirilmə başlananadək həyata keçirilir.

6.7. Qısamüddətli notların ödəniş günü qeyri-iş günü olduqda ödəniş növbəti ilk iş günü həyata keçirilir. Bu zaman qısamüddətli notların ödənişi nominal qiymətlə aparılır.

## VII. Qısamüddətli notlarla aparılan əməliyyatların depozitar uçotu

7.1. Qısamüddətli notlar üzərində hüquqlar və hüquqların keçməsi halları Depozitarda sahiblərin depo hesablarında qeydlərlə təsdiq edilir.

7.2. Qısamüddətli notların girovla yüklənməsi girovun rəsmi reyestrində aparılan qeydlərlə təsdiq edilir.

## VIII. Qısamüddətli notlarla bağlanmış əqdlər üzrə hesablaşmaların aparılması qaydası.

8.1. Qısamüddətli notlarla bağlanmış əqdlər üzrə hesablaşmalar nağdsız qaydada aparılır.

8.2. Hesablaşmalar Milli Bankın müvafiq struktur bölməsi tərəfindən aşağıdakılar əsasında aparılır:

8.2.1. İlkin yerləşdirilmə Milli Bankda keçirildikdə bağlanmış əqdlər reyestrindən çıxarışlar;

8.2.2. əqdlər Fond birjası vasitəsilə bağlandıqda Fond birjası tərəfindən tərtib edilmiş hesablaşma sənədləri;

8.2.3. ***Çıxarılıb***

8.2.4. ***Çıxarılıb***

8.2.5. ***Çıxarılıb***

## IX. Buraxılış, ticarətin gedişi haqqında rəsmi məlumatın tərkibi və dərc olunması qaydası.

9.1. Qısamüddətli notların ilkin yerləşdirilməsi Fond birjasında keçirildikdə Milli Bank Fond birjasına ilkin yerləşdirmənin parametrlərini özündə əks etdirən hərracın keçirilməsi tapşırığını verir. İlkin yerləşdirmə Milli Bankda keçirildikdə, investorlara ilkin yerləşdirmənin parametrlərini özündə əks etdirən rəsmi məlumat göndərilir.

9.2. İlkin yerləşdirmə başa catdıqdan sonra hərracın yekunları barədə rəsmi məlumat hərrac Fond birjasında keçirildikdə Fond birjası tərəfindən, Milli Bankda keçirildkdə isə, Milli Bank tərəfindən hazırlanır.

9.3. Fond birjası təkrar bazarda hərracların yekunları üzrə bu Qaydalara 5 №-li

Əlavə formasında rəsmi məlumatı hazırlayır.

9.4. Fond birjası və Depozitar tərəfindən saxlanılan və rəsmi məlumata daxil edilməyən (bu bölməyə müvafiq surətdə) məlumat, o cümlədən qısamüddətli notların konkret alqı-satqısı əqdlərinin şərtləri və tərəfləri barədə məlumat məxfi məlumat hesab olunur.

## X.Yekun müddəalar.

9.5. Bu Qaydalar QKDK tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.

*Azərbaycan Respublikası Milli Bankının Qısamüddətli notlarının buraxılışı, yerləşdirilməsi və tədavülü haqqında Qaydalara Əlavə № 2*

**Azərbaycan Respublikası Milli Bankının qısamüddətli notlarının alınması üçün**
**Sifariş**

Bununla _______________________________________ Milli Bankın _________________
*(bankın adı)*
dövlət qeydiyyat nömrəli qısamüddətli notların "_____" _________________2001-ci ildə keçiriləcək ilkin yerləşdirilməsində bu Sifarişə ___ vərəqdə əlavə göstərilmiş həcmdə və qiymət şərtləri ilə iştirak etmək niyyətini bildirir.

| № | Əqdin qiyməti (%) | Qısamüddətli notların nominal üzrə həcmi (man.) | Artan yekunla əqdin həcmi (man.) (2*3) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |

Bankın adı və hesabından verilən sifariş

| Qeyri-rəqabətli | | | |
|---|---|---|---|
| | | | |

| Rəqabətli | | | |
|---|---|---|---|
| | | | |

___________________ "Azərbaycan Respublikası Milli Bankının qısamüddətli notlarının
*(bankın adı)*
buraxılışı, yerləşdirilməsi və tədavülü haqqında Qaydalar"da müəyyən edilmiş şərtlərlə və qısamüddətli notlarının müəyyən olunmuş kəsmə və orta çəkili qiyməti ilə razıdır və onlardan irəli gələn öhdəlikləri öz üzərinə götürür.

Bank aşağıdakı şərtlərlə razı olduğunu bildirir:

1) Milli Bank ilkin yerləşdirilmənin yekunlarına əsasən  ilkin yerləşdirilmə zamanı  təmin edilmiş sifariş üzrə öhdəlik məbləğində vəsaitin silinməsi barədə; və
2) təmin edilmiş sifariş üzrə öhdəlikləri icra etmədikdə əvvəlcədən müəyyənləşdirilmiş sanksiyanın tətbiq edilməsi barədə  sərəncam vermək hüququna malikdir.

M.Y.
İmza __________

*Azərbaycan Respublikası Milli Bankının Qısamüddətli notlarının buraxılışı, yerləşdirilməsi və tədavülü haqqında Qaydalara*
*Əlavə № 3*

**“____”_____________” 2001 -ci il tarixli __________ N-li qısamüddətli notlar buraxılışının ilkin yerləşdirilməsinə təqdim olunmuş sifarişlərin ümumi reyestri**

| Sifarişlərin sayı | Qiymət % | Gəlirlilik % | Rəqabətli | | Qeyri-rəqabətli | | Cəmi | | Orta çəkili qiymət % | Orta çəkili gəlirlilik % |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Nominal üzrə sifarişlərin həcmi man. (artan yekunla) | Hasilatın məbləği man. (artan yekunla) | Nominal üzrə sifarişlərin həcmi man. ( artan yekunla) | Hasilatın məbləği man. (artan yekunla) | Nominal üzrə sifarişlərin həcmi man. ( artan yekunla) | Hasilatın məbləği man. (artan yekunla) | | |
| | | | | | | | | | | |

*Azərbaycan Respublikası Milli Bankının qısamüddətli notlarının buraxılışı, yerləşdirilməsi və tədavülü haqqında Qaydalara Əlavə № 4*

**İlkin yerləşdirilmənin yekunları üzrə orta çəkili qiymətin hesablanma qaydası**

Qısamüddətli notların hər buraxılışı üzrə orta çəkili qiymət ilkin yerləşdirilmənin nəticələrinə əsasən aşağıdakı düstura uyğun olaraq hesablanır:

$$P = \frac{C}{Q} *100\%$$

burada:

P– ilkin yerləşdirilmənin orta çəkili qiyməti (faizlə);

C – qısamüddətli notların yerləşdirilməsindən hasilat məbləği (manat);

Q – yerləşdirilmiş qısamüddətli notların nominal üzrə həcmi (manat).

Birbaşa hərracda ilkin yerləşdirmənin yekunları üzrə orta çəkili qiymət Milli Bankın elan etdiyi qiymətə bərabərdir.

*Azərbaycan Respublikası Milli Bankının qısamüddətli notlarının buraxılışı, yerləşdirilməsi və tədavülü haqqında Qaydalara Əlavə № 5*

**BiRJA MƏLUMATI**

gün/ay/il

| Qiymətli kağızın №-si | Nominal | Qiymətli kağızlar üzrə dövriyyə (ədəd) | Dövriyyə (manat) | Əqdin qiyməti | | Sifarişlərin qiyməti | | Bağlanış kotirovkaları | | Gəlirlilik | Əqdlərin miqdarı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | min. | maks. | maks. alış | min. satış | alış | satış | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| **Cəmi:** | | | | | | | | | | | |